Bu inqilab cənginin musiqisi əsasında 1871-ci ildə şair Öjen Potye və bəstəkar Pyer Deqeyter «L'Internationale» («Beynəlmiləl») mahnısını yaratmışlar. Mahnının mətnini 1902-ci ildə inqilabçı şair Yakov Kots ruscaya cevirmişdir. Mahnı 1906 – 1918-ci illərdə RSD(b)P-nın, 1918 – 1943-cü illərdə Sovetlər dövlətinin, 1943 – 1991-ci illərdə ÜİK (b) P – SovİKP-nin vəsifi (himni) olmuşdur.

«Marseyez»in əsasında rus inqilabçısı Pyotr Lavrov 1875-ci ildə «Raboçaya Marseleza»nı yazıb. Rusiyada bu inqilabi mahnının oxunmasına görə camaat gülləbaran edilirdi. Bununla bağlı bir tarixi hadisə xatırlanır.

Birinci Dünya Müharibəsi ərəfəsində 1914-cü ilin baharında «Savaş Puankare» (Poincare laguerre) – Fransa prezidenti Remon Puankare Rusiya imperatoru II Nicolayı alman dövlətlərinə qarşı müharibəyə cəlb etmək məksədilə Sankt-Peterburqa gəlir. Qarşılanma mərasimində Fransa Respublikasının dövlət vəsifi calınır. Buraya tökülmüş camaat qəzəb və nifrətlə imperatorun üzünə rusca «Fəhlə Mağseyezi»nin sədasını ucaldır…

«Marseyez»i 1980-ci ildə Azərbaycan dilinə tərcümə etmişəm. Həmin tərcümə sonralar da bəstəkar Tofiq Quluyevin köməkliyi ilə notla birlikdə kiciçik buklet şəklində çap edilmişdir.

**Şamil Zaman.**

*Bakı, 2009.*

UDS 371.13

Cəfərov Qəmbər Məhərrəm oğlu
Məmmədzadə Müjkan Əbdüləli qızı

# Tələbələrin idarəetmə bacarıqlarının formalaşmasına təsir edən psixolojı aspektlər

*Açıqlama:* Tələbələrin idarəetmə bacarıqlarının inkişaf etdirilməsi üzrə aparılan yeni mülahizələr, psixoloji aspektləri araşdıran nəzəriyyələrin müqayisəli təhlilləri zəruri xarakter daşıyır. Yeni biliklərin müəllimlər üçün effektiv olması proaktiv və reaktiv elementlərin sintezi, nəticə olaraq, idarəetmə sistemini qurmasına imkan verəcəkdir.

*Açar sözlər: tələbə, tədris, idarəetmə, psixoloji aspektlər, təlimin idarə olunması*

Abstract: New considerations on the development of students' management skills, comparative analyses of theories investigating psychological aspects are necessary. The effectiveness of new knowledge for teachers will allow them to build a management system, as a result of which the synthesis of proactive and reactive elements will be achieved.

Keywords: student, teaching, management, psychological aspects, training management

## Giriş

Pedaqoji ali təhsil alan tələbələrin idarəetmə mədəniyyətinin formalaşması gözlənilən təlim nəticələrinin əldə olunmasına xidmət edir, müasir cəmiyyətdə gənclərdən səmərəlilik və məhsuldarlıq bacarıqlarına sahib olmağı tələb edir. Mövcud pedaqoji təhsildə vəziyyətin mürəkkəbliyi, sosial nizamın, normaların, qaydaların, dəyərlərin dəyişməsi, müasir islahatlar tələbələrin özünü idarəetməsində müəyyən narahatlığa səbəb olmuşdur. Pedaqoji təhsil sistemində idaəretmə bacarıqları tələbələrin gələcək karyera quruculuğunda qarşıya çıxan problemlərin həllində böyük rol oynayır. Bu baxımdan təhsildə idarəetmə sahəsində peşəkar kadrların formalaşdırılması problemi gündən günə aktuallaşır.

Tədqiqatlar sübut edilmişdir ki, idarəetmə prosesində tənqidi təfəkkürün pedaqoji aspektləri və yaradıcı təfəkkür bacarıqlarının yeni üsullarının öyrənilməsi tələblərdə gələcəyi proqnozlaşdırmaq kimi yüksək səviyyəli təfəkkür formalaşdırır. Təhsil psixologiyası idarəetmə işində tətbiq ediləcək bir çox çərçivə işini təklif edir, motivasiya, möhkəmləndirmə və müəllim tələbə münasibətləri kimi auditoriyada istifadə olunan bəzi psixoloji üsullara diqqət yetirir. Tələbələrdə idarəetmə vərdişlərinin psixoloji təsirlərini təhlil edərkən aşağıdakı tədqiqat suallarını araşdırmaq lazımdır.

– Psixoloji üsullar tələbələrdə nəticələrə diqqət yetirmək üçün necə kömək

edir?

– Tələbələrin davranışının pozulmasının arxasında hansı əsas psixoloji problemlər durur?

**Əsas hissə**

Təlimin idarəolunmasında müxtəlif psixoloji nəzəriyyələr tələbələrin idarəetmə bacarıqlarının inkişaf etdirilməsi üzrə aparılan yeni mülahizələri, psixoloji aspektləri araşdırkən onun müqayisəli təhlilləri zəruri xarakter daşıyır. Araşdırılan yeni nəzəri-psixoloji biliklərin müəllimlər üçün effektiv olması proaktiv və reaktiv elementləri idarəetməni qurmağa imkan verəcəkdir.

A). *B.F. Skinnerin Davranışı formalaşdırma modeli.*

Bu nəzəriyyəyə görə, tədqiqatçı tələbələrin özünü idarəetməsini davranışın nəticələrinə görə formalaşdığını iddia edir[1].




*Sxem 1***.** B.F.Skinnerin davranışı möhkəmləndirmə modeli

Burada istənilən möhkəmləndirici mexanizmin sistematik istifadəsi tələb olunur və tələbələrin davranışlarını istənilən istiqamətdə formalaşdırır (*Sxem 1*). Müəllimlər əvvəlcə arzu olunan davranışları təyin edir və tələbələri bu arzu olunan davranışları təkrarlamağa təşviq etmək üçün uyğun möhkəmləndirici üsullar seçərək onların davranışlarını formalaşdırır və təlimin idarəolunmasının təkamülünü göstərir:

- metakoqnisiya və kritik düşüncə;
- vaxtın səmərəli idarə olunması;
- fəal təlim mühiti[2].

[1] Skinner, B.F. **The operant side of behavior therapy** // *Journal of Behavior Therapy and Experimental Psychiatry*, – 1988. No 19(3), – p.171–179. – s.174. URL: https://psycnet.apa.org/doi/10.1016/0005-7916(88)90038-9

[2] Skinner, B.F. – *eyni mənbədə*: – s.173.

Skinerə görə, idarəetmə zamanı təlimdə komanda işinin təşkili bir funksiya olaraq, davranışlarda dəyişikliklərin baş verməsi kimi əsaslandırılır:

– Davranışdakı dəyişikliklər tələbələri əhatə edən mühitdə baş verən hadisələrə və ya stimullara reaksiyalarını təsvir edir;

– Komanda işində stimul - reaksiya (S-R) nümunəsi üzrə mükafatlandırılır;

– Skinner nəzəriyyəsi möhkəmləndirmə və ya istənilən cavabı gücləndirən bir yanaşmadır.

B). *V.Qlesserin Nəzəri Seçim Modeli* (Glasser's Model of Choice Theory)

Bəzən təlimdə tələbələrin öz davranışlarına nəzarət etmə və özlərinə uyğun yeni davranışlar qazanması lazım gəlir. V.Qlesser bu nəzəriyyədə tələbələrin özünüidarəetmələrinə dəstək verərək, əsas ehtiyaclarını qarşılayan, uyğun olmayan davranışların azaldılmasını təklif edir və aşağıdakı nəzarət mexanizmlərini dəyərləndirir[3]:

– Tələbələrə özünüidarəetmə üzrə şəxsi uğur qazanmaq üçün nəticə etibarilə uyğun davranış seçimi etməyə kömək etmək;

– Tələbələrə yaxşı davranış seçimləri etməyi öyrənməyə kömək etmək;

– Davranış seçimlərinə uyğun real dünyada ehtiyacları ödəyə bilən məsuliyyətli şəxslər yetişdirmək;

– Tələbələri rasional seçimlər etməyə və öz davranışlarına nəzarətə istiqamətləndirmək;

– Tələbələrin yaxşı seçim etməsini təmin etmək üçün öz seçimlərinin nəticələrini görmək.

Seçim Nəzəriyyəsindən irəli gələn əsas ideya odur ki, tələbələrin özünə nəzarət və bununla da auditoriyanı idarə etməsi üçün müəllimlərin tətbiq etdiyi nizam-intizam qaydalarına olan ehtiyacı aradan qaldırılmalıdır. Auditoriya üçün qaydaların yaradılmasında tələbələr fəal iştirak etməli, onları təlimə motivasiya edən və özləri üçün maraqlı olan anlayışları araşdırmalı, öz seçimlərini başa düşmək üçün müəllimin bələdçiliyini qəbul etməlidirlər[4].

C). *İdarəetmədə konfliktlərin həlli – T.Qordon modeli* (Thomas Gordon 2002)

Davranış modifikasiyası. Bu yanaşmanın əsasını tələbələrin idarəetmə mədəniyyəti qazanmaq üçün davranışlara yönəlmiş fərziyyələri təşkil edir. Biheviorizmi araşdıran tədqiqatçılar öyrənənlərin öz davranışlarını, hərəkətlərini təqib edərək nəticələrin dəyişdirilə biləcəyinə inanır və bunu möhkəmləndirmə prinsipi sisteminin istifadəsi kimi qəbul edirlər. Bütün yeni davranışlar öyrədilən davranış nəticəsində qorunur, dəyişdirilir və ya formalaşır. Davranış

[3] Glasser, W. **Choice theory in the classroom** / *W.Glasser. – New York, Harper, – 2001. – p.25-34.* – s.83.
[4] Glasser, W. – *eyni mənbədə*: – s.95.

modifikasiyasına daxil olan sahələr aşağıdakılardır[5]:

- Başqalarına nəzarət etmək üçün istifadə edilə bilən səlahiyyətlərin olması;
- Problemlə üzləşən hər bir fərdin bu problemə sahib olması;
- Hər hansı bir problemin olub olmadığını müəyyənləşdirmək üçün istifadə olunan dəstəkverici bir fikrin olması;
- Başqaları ilə davranışda “Mən” mesajının azaldılması;
- Qarşılıqlı ünsiyyətdə günahlandırıcı ifadə kimi “Siz” mesajının işlədilməməsi.

T.Qordonun davranış modeli pillələri (*Sxem 2*):




*Sxem 2***.** Problemin həllində Qordon modeli

T.Qordon təlimdə tələbələri konfliktlərin həllində bacarıqlı olmasını özünəməxsus dəyərlər kimi şərh edir və əsas idarəetmə vərdişi kimi qiymətləndirir. Bu modelə əsasən, bir qarşıdurmanı həll etmək növbəti bir əlaqəni məhv etmək məcburiyyətində deyil, əksinə açıq və dürüst ünsiyyət

[5] Thomas, Gordon. **Conflict-Solution Innovator** // *Page 21of the National edition with the headline, – 2002. No 84, – p.21.* – s.18.

quraraq, həqiqi qəbul və anlayışına malik olmağı inkişaf etdirir, qarşı tərəfi dinləməklə yanaşı, problemin öz həlli yollarını tapa bilirlər. T.Qordonun davranış modeli bir-birini izləyən pillələrlə problemin müəyyən edilməsi, həlli yolların araşdırılması və dəyərləndirilməsi, ən yaxşı həllinə qərarın verilməsi, qərarın həyata keçməsini planlaşdırmaq və problemin həllini qiymətləndirməkdən ibarətdir[6].

Ümid edirik ki, bu model tələbələrdə özünüidarəetmənin inkişafında davranışları dəyişdirəcək qədər insan hisslərinə hörmət etməyi öyrədəcək[7].

A). *Tələbə istiqamətli təlim - Alfi Kohn modeli* (Alfie Kohn 2010)

A.Kohn təhsil haqqında fikirlərini Con Dyu və Jan Piajet tədqiqatlarından təsirlənərək bildirmişdir. Təlimdə məlumatları bir toplu kimi mənimsəmək əvəzinə təlimin konstruktiv bir modelini təklif edir və qazanılan biliyin hər hansı bir məqsədlə, bir kontekstdə baş verməsini iddia edir. Kohnun təklif etdiyi nümunə ən səmərəli model kimi, tələbələrin idarəetmə vərdişlərinə yiyələnməsini problemlər, tapşırıqlar, layihələr və suallar, faktlar, bacarıq və ətrafında öyrənməsi kimi təqdim edir. Kohn təlim mühiti modifikasiyasını iki yolla təqdim edir:

– Müəllim şagirdlər arasında dolaşmalıdır;

– Auditoriya müzakirələri müəllim yox, tələbələr tərəfindən aparılmalıdır[8].

Bu yanaşmada A.Kohn tələbələrin auditoriyada fəal bir səs sahibi olmasını düşünür və yeni model tədris proqramına, təlim nəticələrinə uyğun fiziki mühitin təmin olunmasını, otaq quruluşunun və faydalı təlimatların davranışa psixoloji təsirini vurğulayır.

B). *İdarəetmədə "Orkestr" modeli – Pier Dilenbuq* (Dillenbourg, P. & Jermann, P. 2010)

Orkestrasiya modeli təlimin idarə olunmasında tələbələrin psixoloji cəhətdən düzgün oriyentasiyasını təmin edir. Burada bir çox pedaqoji senarilər tələbələrin fərdi fəaliyyətlərini birləşdirir, komanda işini təşkil edir, problemin həllinə qoşulur və auditoriya mühazirələrində iştirakını təklif edir[9].

Bu model pedaqoji prosesdə idarəetmə bacarıqlarının texnoloji inteqrasiya əsasında qazanılmasında təqdim olunur. Burada məqsəd əsasən noutbuklar, sensorlar, planşetlər üzərində müxtəlif üsullardan, simulyasiya, dialoqlar, müsahibə və söhbətlərdən istifadə etməklə ünsiyyətin yaranması və problemin həllini tapmasıdır. Bu inteqrasiyada senarilər, orkestrasiya adlandırılan idarəetmə

---

[6] Thomas, Gordon – *eyni mənbədə*: – s.16.
[7] Thomas, Gordon – *eyni mənbə*.
[8] Alfie, Kohn. Beyond Discipline*:* **From Compliance to Community**. */Association for Supervision and Curriculum Development / – 1996/2006. – 182 p.* – s.111.
[9] Dillenbourg, P. **Technology for Classroom Orchestration**. */In: M.S.Khine & I.M.Saleh (Eds) New Science of Learning / P.Dillenbourg, & P.Jermann. Cognition, Computers and Collaboration in Education, – 2010. – p. 525-552.* – s.534.

formalarından istifadə etməklə müəllimlərin və tələbələrin kompüter savadına malik olmasını və sosiallaşmanın mahiyyətini izah edir.

**Nəticə**

Ali təhsil müəssisələrində tələbələrin idarəetmə bacarıqlarının psixoloji aspektlərinin araşdırılmasında bir çox yeni nəzəri modellərin müqayisəli təhlili onun bugünkü təlimlə əlaqəsini izah edir, bu nəzəri ideyaların faydalı elementlərini tədqiqat işinin fərziyyələri ilə bağlayır. Təlimdə idarəetmənin müxtəlif koqnitiv bacarıqlara sirayət etməsini, təlimdə özünüidarəetmə, özünütənzimləmə, fərdi stresin aradan götürülməsi və motivasiyanın rolunu aşkarlayır.

*Özət*:

Təqdim olunan nəzəri psixoloji modellərin öyrənilməsi tədqiqat işinin perspektivliyində belə bir nəticəyə gəlməyə imkan verir ki, təlimdə davranış modellərinin dəyişkənliyi və yeni bir təlim forması, sonda tələbə mərkəzli təlimin idarə olunmasında müxtəlif psixoloji yanaşmaların olmasını zəruri hesab edir.

*Summary*:

The study of the presented theoretical psychological models allows us to conclude, in the perspective of the research work, that the variability of behavioral models in learning and a new form of learning ultimately necessitate different psychological approaches in the management of student-centered learning.

**Tövsiyə olunan ədəbiyyat:**

1. Alfie, Kohn. Beyond Discipline: From Compliance to Community. /Association for Supervision and Curriculum Development / – 1996/2006. – 182 p.
2. Dillenbourg, P. Technology for Classroom Orchestration. /In: M.S.Khine & I.M.Saleh (Eds) New Science of Learning / P.Dillenbourg, & P.Jermann. Cognition, Computers and Collaboration in Education, – 2010. – p. 525-552.
3. Glasser, W. Choice theory in the classroom / W.Glasser. – New York, Harper, – 2001. – p.25-34.
4. Skinner, B.F. The operant side of behavior therapy // Journal of Behavior Therapy and Experimental Psychiatry, – 1988. No 19(3), – p.171 – 179. URL: https://psycnet.apa.org/doi/10.1016/0005-7916(88)90038-9
5. Thomas, Gordon. Conflict-Solution Innovator // Page 21of the National edition with the headline, – 2002. No 84, – p.21

*Qeyd*: Məqalə 12-13 oktyabr 2024-cü il Muqlada (Türkiyə) “Yeşil Dünya ve Saglıklı Gelecek” beynəlxalq elmi-praktiki müşavirədə müəlliflərin çıxışının mətn təsviridir.

Müəlliflər haqqında məlumat oxu : **“Who is who?”** – səh.63.

UDS 355.235.12

Məmmədzadə Müjkan Əbdüləli qızı

# Xüsusi təyinatlı təhsil müəssisələrində psixoloji amillərin təlimə təsiri: sistemli bir yanaşma

*Açıqlama*: Xüsusi təyinatlı təhsil müəssisələrində təhsilalanların təlim prosesinə təsir edən psixoloji amillərdən bəhs olunur. Təhsilalanların innovativ fəaliyyəti onlara yenilik etmək, müstəqil iş təşkil etmək, tədqiqat bacarıqlarını inkişaf etdirmək və gələcək qlobal çağırışlara cavab vermək imkanları verir.

*Açar sözlər: xüsusi təyinatlı təhsil müəssisələri, təhsilalanlar, təlim prosesi, idarəetmə, təlim mühiti*

*Abstract*:

This article discusses psychological factors that affect the learning process of students in special educational institutions. The innovative activities of students provide them with opportunities to innovate, organize independent work, develop research skills, and respond to future global challenges.

*Keywords*: *special purpose educational institutions, students, training process, management, training environment*

## Giriş

Təhsil sistemlərində genişmiqyaslı inkişaf tələbləri dünya səviyyəsində artarkən, xüsusi təyinatlı təhsil müəssisələrində təhsil sistemi strukturları bu tələblərə davamlı olaraq cavab tapa bilmir. Xüsusi təyinatlı təhsil müəssisələrində idarəetmə strukturları demək olar ki, təhsil sahəsində baş verən uğursuzluqlara cavab vermir və əksər ali təhsil problemlərinin təhsilin idarəetmə strukturlarında olduğu iddia edilir.

Təhsilalanların innovativ fəaliyyəti onlara yenilik etmək, müstəqil iş təşkil etmək, tədqiqat bacarıqlarını inkişaf etdirmək və gələcək qlobal çağırışlara cavab vermək imkanları verir.

Metodiki cəhətdən bu sahənin araşdırılması yeni məzmun əsasında, xüsusi təyinatlı təhsil müəssisələrinin tədrisində idarəetmə mədəniyyətinin qazanılması kifayət qədər tədqiq edilməmişdir.

## Əsas hissə

Xüsusi təyinatlı təhsil müəssisələrində təhsilalanların davranışında sosial təlim nəzəriyyəsini təqdim edən alim məşhur Kanadalı – Amerikalı psixoloq Albert Bandura sosial öyrənmə nəzəriyyəsini (SÖN) pedaqoji elmə gətirmiş, şəxsiyyətin formalaşmasında müşahidələrin rolunu xüsusi qeyd etmiş, təhsilalanlar idarəetmə bacarığı kimi, təlimin qarşılıqlı qərar vermə modelini

təqdim etmişdir[1].




*Sxem 1.* Sosial Təlim Nəzəriyyəsindəki üç komponent, öyrənən, mühit və davranış tərəfindən təsvir olunan qarşılıqlı determinizm[2].

A.Bandura kimi B.J.Zimmerman və M.Martines Pons da özünü tənzimləmənin düşüncələr, hisslər və davranışlar kimi təlimin koqnitiv tərəflərini özündə birləşdirən hədəfə əsaslanan bir proses olduğuna inanırdı[3] [11, s.285].

---

[1] Bandura, A. **Social cognitive theory of self-regulation**. // *Organizational behavior and human decision processes, – 1991. No 50 (2), – p.248-287.* - s.252.
[2] Bandura, A. – *eyni mənbədə.*
[3] Zimmerman, B.J. & Martinez-Pons, M. **Construct validation of a strategy model of student selfregulated learning** // *Journal of Educational Psychology, – 1988. No 80(3), – p. 284-290.* - s.285.

SÖN modeli, təlimin sosial kontekstdə reallaşmasını təklif edir və burada dinamik mühit və davranış arasında qarşılıqlı əlaqədə yarandığını sübut edir. Bu üçbucaqlı əlaqə (*Sxem 1*) bir-biri ilə əlaqəli beş konstruksiya olan, öyrənən, müşahidə, gözləntilər, davranış və təlim mühitinə əsaslanır.

Sxemdən göründüyü kimi, təhsilalanların təlimdə idarəetmə bacarıqları ilk olaraq, onların gözləntilər üzrə davranışlarının modelləşdirmə, müşahidə və uyğun təlim mühitində möhkəmləndirmə yolu ilə formalaşır (*Sxem 1*) A.Bandura auditoriya şəraitində davranış strategiyalarının tətbiqi nəticəsində təhsilalanlardakı qabiliyyətlərin təlimə müsbət təsir göstərməsini sübut edə bilmişdir.

SÖN-nin məqsədi öyrənənlərin müəyyən bir zaman ərzində nəzərdə tutulmuş davranışı əldə etmək üçün idarəetmə bacarıqları və möhkəmləndirilmiş mühit vasitəsilə bu davranışların necə tənzimlədiyini təsvir etməkdir.

Bu fikirləri araşdıran pedaqoq alim A.Bandura təlimin sosial bir kontekstdə baş verdiyini sübut edir və təlimdə idarəetmə davranışının əsasən öyrənən, təlim mühiti, davranış arasındakı dinamik və qarşılıqlı determinizmə əsaslandığını təklif edir[4]. Determinizm prinsipi özündə əsasən yeddi komponenti təyin edir:

a. Tələbəyönümlü təlim;
b. Təlimin sosial mahiyyəti;
c. Emosional təlimin təşkili;
d. Fərdi fərqlərin tanınması;
e. Bütün təhsilalanların nəzərə alınması;
f. Təlimdə qiymətləndirmə;
g. Horizontal əlaqələrin qurulması.

Qarşılıqlı determinizm öyrənənin müstəqil fəaliyyətini tənzimləyən səmərəli bir üsul kimi təhsilalanların maraqları, fəal təlim mühiti, xarici sosial kontekst və gözlənilən davranışa nail olmaq üçün reaksiyası və ya fəaliyyəti arasındakı qarşılıqlı əlaqəsi deməkdir. Təlimdə bu modelin tətbiqi təhsilalanlarda problemin həlli, əməkdaşlıq, sərbəst tənqidi fikir və təqdimetmə vərdişlərini inkişaf etdirir. Müşahidəli təlim üsulu müəyyən edilmiş kriteriyalar əsasında hazırlanır və bu üsulu müəllim və ya digər təhsilalanlar həyata keçirir[5].

Xüsusi təyinatlı təhsil müəssisələrində təlimin gözləntilərə əsaslanması, yəni təhsilalanların maraqları və məmnunluğuna xidmət etməsi çox vacib faktordur. Təhsilalanlarda özünüidarə və bunun əsasında metakoqnitiv idarəetmə bacarıqları ilk öncə, təlim nəticələrində əks olunmalıdır.

Xüsusi təyinatlı təhsil müəssisələrində davranış qabiliyyətinin nümayişi təhsilalanların arzuladığı davranış qabiliyyətini yerinə yetirmək üçün çıxışı və ya təqdimatı tələb olunur. Bu proses üçün maraqlı resurslar, əyaniliklər, texnoloji

[4] Bandura, A. – *eyni mənbədə*: – s.280.
[5] Bandura, A. – *eyni mənbədə*: – s.282.

avadanlıqlar kimi dəstəkləyici vasitələrlə təmin olunması vacib addımdır. Bu davranış özünüidarənin formalaşmasında əhəmiyyətli rol oynayır. Təhsialanın uğur qazanma qabiliyyətinə özünə inamı yoxdursa davranışını idarə etməkdə çətinlik çəkəcəkdir, bu məqsədlə, hər bir fərd fərqli öyrənmə və təhsil strategiyalarından necə istifadə etmək bacarıqlarına inamlarını inkişaf etdirməlidirlər[6].

Təlim mühitinin möhkəmləndirilməsi xüsusi təyinatlı təhsil müəssisələrində təlimin pozitiv və ya neqativ mühitlə təmin olunması daxildir və təhsilalanın davranışına həm daxili, həm də xarici reaksiyalar təsir edir. Pozitiv mühitin möhkəmləndirilməsinə təlimin orijinal formada olması, interaktiv təbiəti, vizual xarakterə malik olması və fəaliyyətin dəyərləndirilməsi daxildir. Tələbələrin motivasiyasını idarə etmək üçün hədəflər müəyyənləşdirilməli, akademik tapşırıqları yerinə yetirmə qabiliyyətinə dair müsbət yanaşmalar inkişaf etdirməlidir[7].

Təqdim olunan nəzəri psixoloji modellərin öyrənilməsi perspektivliyində belə bir nəticəyə gəlməyə imkan verir ki, xüsusi təyinatlı təhsil müəssisələrində təlimdə davranış modellərinin dəyişkənliyi və yeni bir təlim forması sonda təhsilalanların mərkəzli təlimin idarə olunmasında müxtəlif psixoloji yanaşmaların olmasını zəruri hesab edir.

Bütün bunlarla yanaşı təhsilalanların bir fərd kimi daxili özünüidarəsində müxtəlif psixoloji aspektlərin araşdırılması təlimin idarəolunmasında əhəmiyyətli elementlərin öyrənilməsini vacib hesab edir.

Pixoloji tərəflərini araşdıran pedaqoq alimlər qeyd edirlər ki, xüsusi təyinatlı təhsil müəssisələrində təlim prosesində təhsilalanların özünüdərketmə qabiliyyətini inkişaf etdirmək üçün uyğun imkanlar yaradılmalıdır. E.Pskarela, P.T.Terenzini, J.S.Yun yazılarında qeyd olunan tövsiyələrə əsasən təlimdə təhsilalanların müxtəlif tapşırıqlar və fəaliyyətlərdə iştirakının güclü və zəif məhdudiyyətləri müəyyənləşdirilə bilər. Fəaliyyətlər əsasında istənilən məqsəd və hədəflərə çatmaq üçün təhsilalanlar məhdudiyyətləri aradan qaldırmaq gücünə malik olur və problemin təsirli həllini tətbiq edirlər[8].

Azərbaycanlı alimlər təhsilalanlarda şəxsi şüuru inkişaf etdirmək üçün ilkin fəaliyyət kimi ən başlıca idarəetmə bacarığının qəbul olunmasını yazırlar. Özünüdərketmə, psixiloji inkişaf baxımından öyrənənlərin özləri barədə məlumatlılıq yaratmasına imkan verir[9].

---

[6] Bandura, A. – *eyni mənbədə*: – s.284.
[7] Bandura, A. – *eyni mənbədə*: – s.287.
[8] Pascarella, E. **How college affects students.** / *E.Pascarella, & R.T.Terenzini. – San Francisco, CA: Jossey-Bass, – 1991. – 1082 p.* – s.127
[9] Ağayev, Ə.Ə. **Ali məktəbdə təhsili idarəetmənin humanizm və demokratik prinsipləri** / *Ə.Ə.Ağayev. – 2017. URL: http://ajdaragayev2017.blogspot.com/2017/08/ali- mktbd-thsili-idaretmnin-humanizm-v.html* ; Əhmədov, N. **İdarəetmənin pedaqogikası və psixologiyası** / *N.Əhmədov. – Bakı: –2000.* – 384 s.; Əlizadə, Ə. **Pedaqoji psixologiya** / *Ə.Əlizadə,*

Q.E.Əzimov, M.H.Nəzərov, J.D.Kleyn və R.K.Riçi müstəqil fəaliyyətin inkişafını nəzərdə tutan psixoloji təlim mühitinin fiziki olduğu qədər vacib olduğunu qeyd edirlər. Tələbəyönümlü təlimi dəstəkləyən sakit və rasional davranış nümayiş etdirən müəllimlər, təhsilalanların öyrənməsini təşviq edən dəstəkləyici bir mühit yarada bilərlər. Dəstəkləyici və cəlbedici bir öyrənmə mühiti, təhsilalanların sərbəst fəaliyyətinin uğurlu reseptinin tərkib hissəsidir. Müsbət fəaliyyətlər təhsilalanın xoş bir öyrənmə təcrübəsini dəstəkləyir, problem həll etmə və qərar qəbuletmə prosesinə təsir edir. Bunun nəticəsində daha yaxşı perfomansa və mükəmməl bir sosial mühitə gətirib çıxarır, pozitiv mühitlə yanaşı, motivasiyada təhsildə işləyən yanacaq kimi, daha müsbət davranışlara istiqamətlənir. Təlimdə həvəsli hərəkətləri ilə qürur duyan təhsilalanlar daha yaxşı nəticələr əldə edəcəklər[10].

Xüsusi təyinatlı təhsil müəssisələrində təlimdə iştirak edən hər bir fərd daxili streslərin növünə, patologiyasına və disfunksiyalarına görə fərqlənir və yaranan bu vəziyyət olduğu dərəcədə dəyişir. Bəzən təlimdə hər bir öyrənənlərin özündə mənşəyinə uyğun şəxsi streslərini idarə etmələri lazımdır. Bir çox hallarda təlimdə fərdi stresin idarə edilməməsi məqsəd və hədəflərə çatmaq üçün maneə törədir. Müşahidələr göstərir ki, hər bir təhsilalan stresini idarə edərkən, öz yanaşma tərzindən istifadə etdikdə, onun təsirli olduğu təsbit edilə bilər. Təhsilalanlarda qarşılıqlı ünsiyyətin və ya fərdi fəaliyyət zamanı yaranan stresi idarə etməyin ən yaxşı yolunu fəaliyyətlər əsasında minimuma endirəcək və ya aradan qaldıracaq strategiyalardan istifadə etmək lazımdir. Effektiv strategiyalar, stresləri idarə etmək üçün yeni bir pozitiv təlim mühitini yaradan və ya tətbiq edən strategiyalardır. Təhsilalanların idarəetmə bacarıqlarının kökündə streslə mübarizə qabiliyyəti əsas yer tutur.

Xüsusi təyinatlı təhsil müəssisələrində təhsilalanlar özünüidarə qabiliyyətinin nümayişində sualları cavablandırarkən, öz fikrini əsaslandırma, fərqli arqumentlərlə çıxış, müqayisə etmə streslə mübarizə üçün ən zəruri bacarıqlardır. Yüksək səviyyəli idarəetmə vərdişləri təhsilalanlarda təmkinli olmağı, tolerantlıq nümayiş etdirməyi və qarşı tərəfə müsbət rəy göstərməyi tələb edir.

Xüsusi təyinatlı təhsil müəssisələrində təlimdə yaranan hər bir ziddiyyətin təhsilalanlar arasında araşdırılması funksional baxımdan dəyərli bir fəaliyyətdir. Bəzən tədris zamanı münaqişələrin həllində problemlər haqqında əhatəli məlumata malik olmaq, problemi dərindən başa düşmək və daha mənalı həlli yollarını tapmaq münaqişənin uğurla nəticələnməsinə gətirib çıxarır. Bir çox

---

*H.Əlizadə. – Bakı: – 2010.* – 319 s.; Əzimov, Q.E. **Psixi inkişaf və tərbiyənin müasir problemləri** / *Q.E.Əzimov – Bakı: – 2004.* – 385 s.

[10] Əzimov, Q.E. – *eyni mənbə.*; Nəzərov, M.H. **Mədəniyyət və təhsilin ümumi əsasları.** Dərs vəsaiti. / *M.H.Nəzərov, A.R. Babayeva. – Bakı: Mütərcim, – 2016. – 200 s.*; Klein, J.D., & Richey, R.C. **Improving Individual and Organizational Performance** // *The Case for International Standards, Performance Improvement. – 2005. Vol. 44, No. 10, – p.9-14*

hallarda təlimdə və ya təlimdən kənarda təhsilalanlar arasında yaranan ziddiyyətlərin meydana gəlməsində laqeydlik ortaya çıxır. Pedaqoji təhsil sahəsi daha çox polemika yaradan bir sahə olduğu üçün daim təhsilalanların müxtəlif situasiyalar zamanı yaranan qarşıdurma və fikir ayrılıqlarına tez-tez rast gəlmək olur. Konfliktərin baş verdiyi zaman təhsilalanların sülh yolu ilə münaqişələrin həllinə qoşulması vacibdir. Burada əsasən konfliktlərin növü, idarə olunması, mediatorun məsuliyyətlərini bilməsi, münaqişəni azaltmaq üçün fəaliyyətlərin seçilməsi mühüm mərhələ hesab edilir. Təhsilalanlar arasında konfliktlərin həlli üzrə vəziyyətin aydınlaşması hədəfləri vurğulanır, həlli sahələri müəyyən edilir və münaqişə şəraitində belə müxtəlif mədəniyyətlər haqqında anlayışlar öyrədilir. Sualların verilməsi təhsilalanlar arasında şəxsi dəyərləri və etik qaydaları qoruyaraq olanlara qarşı laqeyd konstruktiv bir oriyentasiya inkişaf etdirir [11].

**Nəticə**

Xüsusi təyinatlı təhsil müəssisələrində motivasiya təhsilalanların müstəqil fəaliyyətini, sərbəst düşüncələrini, problemlərə kritik yanaşamların dəyərləndirilməsi və öhdəliyinin təmsil edilməsidir. Təlimdə təhsilalanları həvəsləndirmək liderlik bacarıqlarına sahib olmaq istəyən təhsilalanlar üçün zəruri xarakter daşıyır. Məsələn, auditoriya mühitində təhsilalanlar öyrənmə qabiliyyətlərinə görə fərqlənirlər. Əsasən akademik fəaliyyət müddətində çətinliklərlə qarşılaşan təhsilalanlar müəllimlər tərəfindən motivasiya olmaları lazımdır. Müəllimlər təhsilalanlarla ünsiyyət qurduqda intizamlılığı təmin etməlidirlər. Motivasiya özünüidarəetməyə əsaslandıqda ən yaxşı nəticə verir. Xüsusi təyinatlı təhsil müəssisələrində müəssisələrində idarəetmə bacarıqlarının formalaşması sahəsində müşahidə olunan motivasiya çətinlikləri əsasən aşağıdakılardır:

1. Təhsilanlara nəzarət hissinin verilməsi, təlim məqsədlərinin aydın izah edilməməsi və müsbət təlim mühitinin yaradılmaması təhsilalanları sərbəst fəaliyyətə motivasiya edə bilmir. Təhsilalanlara nəzarət hissinin verilməsi onların seçim və nəzarət etməsinə imkan vermək, onları məşğul etməyin ən yaxşı yollarından biridir. Məsələn, təhsilalanlara tapşırıq növünü və ya hansı problemlərin üzərində işləyəcəyini seçməsinə icazə vermək, onları daha çox iş görməyə sövq edə biləcək nəzarət hissi verə bilər.

2. Təlim məqsədlərinin aydın olması. Bəzən təlim məqsədləri aydın olmadığı təqdirdə auditoriyada tapşırığın yerinə yetirilməsi zamanı təhsilalanların davranışında qarışıqlıq yaranır. Araşdırma zamanı məqsədlər, qaydalar və gözləntilər aydın olmalıdır ki, təhsilalanların tapşırıqları yerinə yetirərkən hədəfləri

---

[11] Əlizadə, Ə. – *eyni mənbə.*; Кабаченко, Т.С. **Психология управления.** Педагогическое общество России / *Т.С.Кабаченко, – Москва: – 2003. – 283 с.*; Карпов, А.В. **Психология менеджмента.** URL:http://sbiblio.com/biblio/archive/karpov_psiho/12.aspx (*Дата обращения: 05.01.2012*).

də dəqiq olsun. Məqsədlərinin aydın və dəqiqliyi onların özünü inkişafında həvəsləndirici rol oynayır .

3. Təhlükəsiz təlim mühitinin yaradılması. Müəllimlər təhsilalanlar üçün təhlükəsiz, dəstəkləyici bir mühit yaratmaqla, fərqli qabiliyyətləri reallaşdıra bilirlər. Bu zaman təhsilalanlar məsuliyyətlərini dərk edirlər və özləri akademik hədəflərə çatmaq və karyera perspektivlərini zənginləşdirmək üçün motivasiyanı inkişaf etdirirlər.

*Özət*: Təqdim olunan məqalədə belə nəticəyə gəlinir ki, Xüsusi təyinatlı təhsil müəssisələrində təlimdə təhsilalanları həvəsləndirmək liderlik bacarıqlarına sahib olmaq istəyən təhsilalanlar üçün zəruri xarakter daşıyır və motivasiya özünüidarəetməyə əsaslandıqda ən yaxşı nəticə verir.

Müəllif haqqında məlumat: **"Who is who?"** – səh.63.

**Tövsiyə olunan ədəbiyyat:**

Ağayev, Ə.Ə. Ali məktəbdə təhsili idarəetmənin humanizm və demokratik prinsipləri / Ə.Ə.Ağayev. – 2017. URL: http://ajdaragayev2017.blogspot.com/2017/08/ali-mktbd-thsili-idaretmnin-humanizm-v.html

Əhmədov, N. İdarəetmənin pedaqogikası və psixologiyası / N.Əhmədov. – Bakı: –2000. – 384 s.

Əlizadə, Ə. Pedaqoji psixologiya / Ə.Əlizadə, H.Əlizadə. – Bakı: – 2010. – 319 s.

Əzimov, Q.E. Psixi inkişaf və tərbiyənin müasir problemləri / Q.E.Əzimov – Bakı: – 2004. – 385 s.

Nəzərov, M.H. Mədəniyyət və təhsilin ümumi əsasları. Dərs vəsaiti. / M.H.Nəzərov, A.R. Babayeva. – Bakı: Mütərcim, – 2016. – 200 s.

Кабаченко, Т.С. Психология управления. Педагогическое общество России / Т.С. Кабаченко, – Москва: –2003. –283 с.

Карпов, А.В. Психология менеджмента [Электронный ресурс]. URL: http://sbiblio.com/biblio/archive/karpov_psiho/12.aspx (Дата обращения: 05.01.2012).

Bandura, A. Social cognitive theory of self-regulation. // Organizational behavior and human decision processes, – 1991. No 50 (2), – p.248-287.

Klein, J.D., & Richey, R.C. Improving Individual and Organizational Performance // The Case for International Standards, Performance Improvement. – 2005. Vol. 44, No. 10, – p.9-14

Pascarella, E. How college affects students. / E.Pascarella, & R.T.Terenzini. – San Francisco, CA: Jossey-Bass, – 1991. – 1082 p.

Zimmerman, B.J. & Martinez-Pons, M. Construct validation of a strategy model of student selfregulated learning // Journal of Educational Psychology, – 1988. No 80(3), – *p. 284-290.*

*Summary*: The presented article concludes that motivating students in special education is essential for students who want to acquire leadership skills and that motivation yields the best results when it is based on self-management.

*Qeyd*: Məqalə 12-13 oktyabr 2024-cü il Muqlada (Türkiyə) "Yeşil Dünya ve Sağlıklı Gelecek" beynəlxalq elmi-praktiki müşavirədə müəlliflərin çıxışının mətn təsviridir.

# Lökbatan



Место, где утонул верблюд.
El lugar donde se ahogó el camello.
駱駝溺亡的地方
The place where the camel drowned.





Озеро Локбатан.
Lago Lokbatan.
洛克巴坦湖
Lake Lokbatan.



Грязевой вулкан Локбатан с 1998 года является кандидатом на включение в список Всемирного наследия ЮНЕСКО.
El volcán de lodo Lokbatan ha sido candidato a ser incluido en la Lista del Patrimonio Mundial de la UNESCO desde 1998.
自 1998 年以來，洛克巴坦泥火山一直是聯合國教科文組織世界遺產名錄的候選名單。
The Lokbatan mud volcano has been a candidate for inclusion in the UNESCO World Heritage List since 1998.

Ильгар Исмаилов
Бахадур Таирбеков

# Памятка для взаимопонимания менеджеров науки, чиновников от науки, организаторов научной деятельности, исследователей, изобретателей, преподавателей и учёных

(*К изданию «Краткого азербайджанско-русского словаря терминов науки»*

*Аннотация:* Данная статья по сути представляет собой возможность заранее ознакомиться с парой словарей терминов науки (русско-азербайджанским и азербайджанско-русским), а также некоторыми проблемами перевода, заимствования, замещения, использования и диффузии научных терминов.

*Ключевые слова: эпистемология, термин, перевод, заимствование, словарь*

*Açıqlama*:
Bu məqalə mahiyyətcə bir cüt (rusca-azərbaycanca və azərbaycanca-rusca) elmi-terminolojı lüğətin yazıldığı məqsədiylə və elmi terminlərin tərcüməsi, özgə dillərdən alınması, bir-birini əvəz edilməsi, istifadəsi və yayılmasının nəticəsində bəzi problemlərin yaradılması ilə əvvəlcədən tanış olmaq imkan verir.
*Açar sözlər*: *epistemologiya, termin, tərcümə, alınma sözlər, lüğət*

Деятельность как целенаправленная активность человека имеет множество сфер, характеризующихся разной степенью хаотичности, кооперации, коллективной вовлеченности, общественного влияния и т.д. В данной публикации рассматривается научная деятельность, точнее некоторые её аспекты.

Наука – это деятельность, упорядоченная определёнными правилами. То есть научная деятельность – системная. А это, в свою очередь, значит, что к науке, как сфере человеческой деятельности применима эпистемологическая классификация систем[1], согласно которой объектом науки может быть все, что угодно. И хотя субъектов науки можно поделить на три класса: исследователей, учёных и догматиков[2] – однако действия, применяемые субъектом к объекту, делятся строго на четыре класса, исходя из приложенного к реальности дихотомического принципа «оригинал –

[1] Таирбеков Б.Б. Эпистемологическая классификация систем. Тезисы IV научной конференции аспирантов вузов Азербайджана. – Баку: 1981, 192 с., с.9.;
[2] Ильгар Исмаилов, Бахадур Таирбеков. Тюркский манкуртизм в современной науке. I Международный системологический конгресс тюркологов. Материалы конференций. “Asiman”, Г., 2022, с. 298, ISBN 978-9952-8442-1-4 – с.87-90, на с.88.

модель»[3]. Эти классы соотносятся каждый с определённой группой терминов, базирующихся на конкретном виде научной деятельности (*см.* – *Рис*.1).

К первому классу относятся исследования. Это неоднократно повторяемые (или принципиально повторимые) отражения естественных объектов в сознании исследователя – субъекта науки. Так как по определению ни одна модель не может полностью отразить оригинал, то каждый акт исследования можно считать экземпляром такого отражения, а их совокупность – субъективной моделью естественного объекта, иначе говоря, структурной моделью.




*Рис*.1. **Эпистемологическая классификация применяемых субъектом к объекту действий в науке.**

[3] Эльдар Султанов, Бахадур Таирбеков. О проблеме нового качества – в сб. II Международный системологический конгресс тюркологов. Материалы конференций. “Asiman”, Г., 2023, 488 с., ISBN 978-9952-8442-2-1 – с.19-31, на с.20.; Таирбеков Б.Б. Введение в системологию (Дошкольный учебник). – Г., «Asiman», 2023, İSBN: 978-9952-8442-6-9 – 254 стр., стр. – 55-70.

Второй класс – это сотворения на оригиналах, которыми являются структурные модели, других моделей с объединением новосотворённых в новую сущность – творческую конструкцию. Есть и обратный процесс – это классификация, то есть объединение творцом им же сотворённых конструкций в классы по какому-либо признаку подобия.

Третий класс составляют воплощения творческих конструкций в физическую реальность, то есть их фактическая материализация.

Четвёртый класс, возможно, самый оригинальный. В этот класс тоже входят исследования, но исследования лишь рукотворных объектов, тех объектов, для которых подлинно известно, что они созданы человеком[4]. Для таких исследований есть специальный термин – изучение. Такие объекты, внедрённые в среду естественных объектов, изменяют её, что требует новых исследований взаимодействия объектов в новой среде.

Казалось бы, всё ясно. Тем не менее, многие деятели науки смешивают понятия и используют в виде синонимов термины, входящие в разные эпистемологические классы, что создаёт хаос не только в публикациях, но и в научно-организационной деятельности. Большинство научных работников не видит, к сожалению, очевидной разницы между исследованием и изучением, организаторы и менеджеры науки часто путают цели, статус, задачи научных объединений или мероприятий.

Свой дополнительный вклад в терминологическую неразбериху вносят переводы и заимствования терминов. В последнее время развилась практика дословных, а не смысловых переводов, а также калькированное заимствование терминов – использование вырванных из контекста слов, созданных на одном языке, в тексте на другом языке без определения, что тоже искажает смысл оригинала. Причём такое заимствование ведётся даже тогда, когда в своём родном языке есть соответствующий термин.

Употребление лексических единиц в качестве терминов, то есть без их предварительного определения, без разницы заимствованы они из другого языка или нет, такая ложная демонстрация научности, иначе говоря, замена научных формулировок наукообразными конструкциями, неизбежно ведёт к неточности изложения и вследствие этого к помехам в научных контактах и коммуникациях.

Очень часто вполне понятное слово заменяется эквивалентом из другого языка. При этом не обращая внимания то, что в своём родном языке заимствованное слово может иметь несколько достаточно различающихся между собой значений. Значит, принципиально возможна ситуация, когда это же слово может быть заимствовано другим сообществом учёных

---

[4] или посредством человека – существует концепция, которую нельзя ни доказать, ни опровергнуть, что человек не творец, а лишь орудие творящей высшей силы.

общающихся на том же языке, что и первая группа, но заимствовано уже в другом смысловом значении. Таким образом, одно и тоже слово может нести разную смысловую нагрузку и использоваться как разные термины.

Свою лепту в терминологическую неразбериху добавляет технология машинного перевода. Как бы не была совершенна эта технология, машину нельзя винить, если не дано точного описание термина, перевод которого может иметь несколько смысловых значений. Непонятно выбор какого из существующих значений в большей мере соответствует контексту.

Наконец, точное смысловое описание термина необходимо ещё и потому, что существует такой естественный процесс, как дрейф терминов в рамках одного и того же языка, но из одной сферы общения в другую. Скажем, из сферы научной деятельности в хозяйственную, бытовую, политическую… Или же просто из одной науки в другую.

Настоящая статья, являясь по существу предисловием к готовящемуся к выпуску «Краткому азербайджанско-русскому словарю терминов науки»[5], преследует цель уменьшить неряшливость и хаотичность во взаимопонимании между профессионалами и новичками в сфере науки, использующими в своих публикациях азербайджанский и русский языки.

Сказанное выше в равной мере относится как к азербайджаноязычным, так и к русскоязычным научным контактам и коммуникациям. В русском в качестве терминов использовались и используются в основном древнегреческие и латинские слова, заимствованные через европейские языки, в основном французский и немецкий. В азербайджанском в качестве терминов использовались и продолжают использоваться как древнегреческие и латинские слова, заимствованные через русский, так и арабские, заимствованные без посредника и гораздо раньше. В последнее время и в русскую, и в азербайджанскую научную среду заметно проникновение заимствований из английского. Всё это при том, что в большинстве случаем заимствующие языки имеют родные эквиваленты.

С научной точки зрения интересен, но в сфере применения терминологии печален тот факт, что при наличии термина в родном языке одновременно существуют параллельные заимствования из разных языков, используемые как термины-эквиваленты. Термин родного языка практически всегда в таком случае отходит на второй план, может выйти из употребления или просто замкнуться в узкоспециализированной области.

Например, «анализ» в русском почти всегда можно и удобно заменить родным словом «разбор». Когда речь идёт о составе жидкостей или газов, применять «анализ» может иметь смысл. Но в других контекстах гораздо удобнее и привычнее использовать «разбор». Тем не менее «анализ» ввиду

[5] Готовится к публикации издательством «Asiman» в 2025 году.

диффузии терминов широко распространяется и в быту, и в обучении. В азербайджанском «analiz» – сегодня это заимствованный через русский дубликат, заимствованного из арабского и освоенного ещё раньше, «təhlil». А практически полностью исчезнувший из научного обихода родной древний общетюркский термин «divan», через фарси и арабский перешедший в западноевропейские языки, и, полностью потеряв там первоначальный смысл, вернулся через русский в качестве названия предмета мебели. В то время ещё невежественных европейцев больше интересовало на чём сидят уважаемые учёные, чем то, о чём они думают.

В словаре сделана также попытка возвращения в научный обиход первоначальных терминов наряду с использованием и новоиспечённых.

Настоящая статья направлена, впрочем, как и весь словарь, на оказание помощи разнообразным чиновникам от науки, пытающимся в удобной для себя форме сформулировать те или иные правила поведения субъектов в научной среде, при этом нередко не обращая внимания на суть и смысл как используемых в качестве терминов слов, так и устоявшихся научных традиций. Авторы надеются, что словарь послужит памяткой для взаимопонимания менеджеров науки, чиновников от науки, организаторов научной деятельности, исследователей, изобретателей, преподавателей и учёных.

*Özət*: Terminin əvvəlcədən tərifini vermədən istifadəsi əslində onun tərcüməsinin düzgünlüyündən və ya özgə dillərdən alınma sözlərin mənimsəmə məqsədəuyğunluğundan asılı olmayaraq elməbənzərliyin (yalançı elmiliyin) nümayişidir. Termin dəqiq mənasının təsviri və ya belə tərifə istinad istənilən elmi əsərin zəruri komponentidir

*Резюме*: Использование терминов без предварительного определения их независимо от точности перевода или целесообразности заимствования фактически является демонстрацией наукообразности (псевдонаучности). Точное смысловое описание термина либо ссылка на такую дефиницию – необходимая составляющая любой научной публикации.

Сведения об авторах: *см.* **«Who is who?»** – стр. 63.

*Презентация «Краткого русско-азербайджанского словаря» и «Краткого азербайджанско-русского словаря» состоится 27 сентября 2025 года.*

*Участвовать в мероприятии можно как очно, так и виртуально.*

*По вопросам участия в презентации следует обращаться по адресу: easa_academy@outlook.com*

# Who is who?



**Asaf Askarov**
*Beynəlxalq Sistemologiya Akademiyasının müxbir-üzvi* (Deutschland) E-mail: askarov75@gmx.de



**Cəfərov Qəmbər Məhərrəm oğlu**, *p.ü.f.d., prof., Azərbaycan İdman Akademiyası, Bakı*. E-mail: gambar.jafarov@sport.edu.az



**Cəfərova Ülviyyə Qəmbər qızı,**
*Azərbaycan İdman Akademiyası, Bakı.*



**Cəməl Şütürlü** («Baktrian»)
*Евразийский эгрегор научных и культурных знаний*
*Ареал: Туран*



**Firengiz Asgar kızı Rüstamova**
Ezoterik doktor
*firengiz.rustamova@mail.ru*
*https://orcid.org/0009-0005-8800-9011*



**İsmailov İlgar,**
akademik
Beynəlxalq Sistemologiya Akademiyasının həqiqi üzvi



**Məmmədzadə Müjkan Əbdüləli qızı,**
p.ü.f.d., *Azərbaycan İdman Akademiyası, Hərbi Elmi Tədqiqat İnstitutunun doktorantı, Bakı Azərbaycan*
*E-mail: mujkan@mail.ru*



**Namazova Əsli Hüseyn qızı,**
*Azərbaycan İdman Akademiyası, Bakı.*



**Şəmsiyyə Tahirbəyova,**
*sistemologiya doktoru, Beynəlxalq Sistemologiya Akademiyasının müxbir-üzvi*



**Voke Briat,**
*Futuroloq*
*(Paris)*



**Курбанов Элнур Назим оглы,** *член «Инициативной группы по возобновляемым источникам энергии», 12.07.1991г.р., индивидуальный предприниматель, Москва.*
*E-mail: Elkurbanov@mail.ru*
*тел: +7(926)9238868.*



**Курбанов Назим Али оглы,** *к.т.н., академик Международной Академии Системологии, руководитель группы экспертиз, 23.05.1953 г.р., пенсионер, Москва.*
*E-mail: dastanchoglu@mail.ru,*
*тел: +7(926)2281325.*



**Бахадур Таирбеков,**
действительный член Международной Академии Системологии и Всемирного клуба системологов.

# Baktrian

# باكتريان

# Бактриан

*Elmi və mədəni bilikləri yayan dövrü nəşr*
*A periodical that disseminates scientific and cultural knowledge*
*Распространяющее научные и культурные знания периодическое издание*


Baş redaktor (Editor-in-chief, главный редактор): *akad.***Tahirbayov B.B.**

**Redaksiya Şurası**
**Editorial Council**
**Редакционный Совет**

**Ağası Hun** *(Komrat, Gagauz Yeri, Moldova)*
**Asaf Askarov** *(Deutschland)*
**Firəngiz Rüstəmova** *(Azərbaycan, Bakı)*
**Gambar Jafarov** *(Azerbaijan)*
**Ilgar Ismailov** *(Moskow)* – vice chairman of the council
**Kumrakh Valiev** *(Moskow, Rossia)*
**Soltan Elbey Alibey oqlu** *(Israil, Xayfa)*

**Redaksiya Heyəti**
**Editorial Team**
**Редакционная Коллегия**

*akad.* **Ularbek Omorov** *(Kyrgyzstan)* – жооптуу секретарь
*şairə və jurnalist* **Nazli Agayeva** *(Azerbaijan)* – bədii redaktor
*BSA m.-üzvi, sistemologiya doktoru* **Shamsiya Tahirbayova** *(Azerbaijan)* – elmi redaktor
*akad.* **Asel Kurbanalieva** *(Kyrgyzstan)* – юридикалык консультант



Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində mətbu nəşrləri reyestrinə 2007-ci il noyabrın 15-də (qeydiyyat nömrəsi 2425) daxil edilib.



Ümumi tiraj – hüdudsuzdur (istənilən şəxs nəşrin övraqından «Baktrian»ın hər bir buraxılışını printerdə çap edərək istifadə edə bilər).

Redaksiya istənilən şəxsə «Baktrian»da dərc olunan bütün yazıları yaxud onların hər hansı bir hissəsini müvafiq buraxılışa istinadən imkanı çatan üslubu ilə, o cümlədən başqa dillərə tərcümə edərkən, təkrar yaymağa icazə verir.


Redaksiya müəlliflərdən materiallarını yalnız elektron şəklində qəbul edir.

E-mail: easa_academy@outlook.com
WhatsApp: +994503653000

Əlyazmalar qaytarılır.


ISBN: 978-9952-8442-3-8


Nəşr resenziyalıdır. Bəzi rəylər (resenziyalar) dərc oluna bilər.

«Baktrian»ın redaktorunun rəyi heç vaxt müəlliflərin rəyilə büsbütün üst-üstə düşmür.

Reklam materiallarının məzmununa «Baktrian» məsuliyyət daşımır.

«Baktrian»la işgüzar əməkdaşlıq quranlar:

“Asiman” Azimut


**"Asiman". İ. 20.06.25. N.v. 6,0. Həcm 4,2 Mb. 168,2 min smb. Şrift: Times New Roman. Form. ISO B5.**